# 28 May–Respublika Günü

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbdə 28 May–Respublika Gününə həsr edilmiş bayram tədbiri keçirilib.



Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, təhsil şöbəsinin inspektoru İbrahim Faxlulov, Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin direktoru Məhəbbət Rüstəmova, qəsəbə 2 nömrəli tam orta məktəbin direktoru İradə Cəlilova, Cığatelli kənd tam orta məktəbin direktoru əvəzi Tərbiyə İsayeva və qəsəbə məktəblərinin kollektivləri iştirak ediblər.

Bayram şənliyində tədbir iştirakçılarını bu əlamətdar gün münasibətilə təbrik edən rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və məktəbin direktoru Mədinə Qasımova 1918-ci ilin may ayının 28-də müsəlman şərqində ilk dəfə yaradılan demokratik respublikanın--Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə mühüm bir hadisə olduğunu qeyd ediblər. Natiqlər əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımızın nəhayət öz istiqlalına qovuşduğunu, öz müstəqil dövlətinə sahib olduğunu diqqətə çatdırmışlar.

Mərasimdə Azərbaycan Xalq Cumhuriyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Tədbir şagirdlərin hazırladıqları maraqlı ədəbi-bədii proqramla davam edib.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

# Şahmat üzrə rayon birinciliyi

Mayın 26-dan 28-dək rayon uşaq-gənclər idman-şahmat məktəbində 28 May–Respublika Gününə həsr olunmuş şahmat üzrə rayon birinciliyi keçirilmişdir.

Yarış Azərbaycan Respublikası Dövlət Himninin sədaları ilə açılmışdır.

Uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev iştirakçıları salamlamış, yarış haqqında onlara məlumat vermiş və şahmatçılara uğurlar arzulamışdır.

Yarış 8, 10, 12 və 14 yaş dərəcələrində məktəbli oğlanlar və qızlar arasında keçirilmişdir. Yarışlara şahmat üzrə beynəlxalq dərəcəli idman ustası Araz Alməmmədov rəhbərlik etmişdir.

76 nəfər şagirdin mübarizə apardığı yarışda 14 yaşlılar arasında birinci yeri İbrahim Qurbanlı, Həqiqət Tağıyeva, ikinci yeri Orxan Mirzəzadə, üçüncü yeri Emin Abdulrəhmanlı, 12 yaşlılar arasında birinci yeri Samir Alməmmədov, İnci Mirzəzadə, ikinci yeri Ümid Abdulkərimli, Çiçək Mehralı, üçüncü yeri İsmayıl Mirzəliyev, Xədicə İsmayılova, 10 yaşlılar arasında birinci yeri İsgəndər İsgəndərli, Fidan Cabbarlı, ikinci yeri Toğrul Bağırov, Aysun Əzizli, üçüncü yeri Elcan Ədilli, Dərya İsayeva, 8 yaşlılar arasında birinci yeri Tağı Tağıyev, Mədinə Eyyubova, ikinci yeri Ömər İsmayıllı və üçüncü yeri Sunay Şirinov qazanmışdır.

Sonda qalib şahmatçılar Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin diplomları ilə təltif olunmuşlar.

**Nərmin RİZVANOVA,**
**UGİŞİM-nin direktor müavini.**

## Təsərrüfat xəbərləri

# Bu il rayonumuzda 75 hektar sahədə tütün əkilib



Rayonumuzun təsərrüfatlarında tütün əkini kampaniyası başa çatıb. Cari mövsümdə rayonda 75 hektar sahədə tütün əkilib. Fermerlər bu il 5 hektarda "Virciniya" növlü ətirli, 70 hektarda isə yerli tütün sortları yetişdirirlər. Builki mövsümdə rayonda quru tütün istehsalının 100 tona çatacağı proqnozlaşdırılır.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə bildiriblər ki, cari təsərrüfat ilində rayonda tütün əkini və becərilməsi işlərinə 200-dən çox işçi cəlb olunub.

Xatırladaq ki, ötən il də qəbələli fermerlər 75 hektar sahədə tütün yetişdirib, 99 tona yaxın quru tütün istehsal ediblər.

**"Qəbələ"**

# Baramaçılıq inkişaf etdirilir

Builki mövsümdə rayonumuzda yaş barama istehsalının ötən illə müqayisədə iki dəfədən çox artırılaraq 20 tona çatdırılması nəzərdə tutulur.

Barama yetişdirilməsi ilə əlaqədar 114 kümçü ailəsi ilə müqavilə bağlanılıb, onlara 500 qutu, yəni 9,5 kiloqram ipəkqurdu paylanılıb. Ümumiyyətlə, cari mövsümdə Qəbələdə baramaçılıq sahəsində 250-dən çox kənd sakininin məşğulluğu təmin olunub.



Rayonda baramaçılığın gələcək inkişafının təmin edilməsi və onun yem bazasını möhkəmləndirilməsi məqsədilə son üç ildə 258 min ədəd tut tingi əkilib. Əkilən tinglərin 110 mini intensiv tipli tut bağlarının salınması məqsədilə Çin Xalq Respublikasından ölkəmizə gətirilərək calaq olunmuş tinglər, qalanları isə yerli tut tingləridir.

**"Qəbələ"**

## Maraqlı fakt

# Neftlə qidalanan bakteriyalar aşkarlanıb

East Anglia Universitetinin alimləri okean çökəkliyində mikroskopik canlılar haqqında yeni məlumatlar əldə ediblər.



UEA-nın alimi Jonathan Todd dünyanın ən dərin çökəkliyi olan Marian çökəkliyində karbohidrogenlərlə qidalanan bakteriyalar qrupu aşkarladıqlarını bildirir. Onun sözlərinə görə, karbohidrogenlər hidrogen və karbon atomlarından ibarətdir. Bu, xam neft və təbii qazda da mövcuddur. Həmin mikroorqanizmlər neftlə qidalanaraq yaşayırlar.

Jonathan Todd 2010-cu ildə BP-nin Meksika körfəzində fəlakətə səbəb olan neft dağılmalarında dənizi təmizləmək üçün belə mikroorqanizmlərdən istifadə etdiyini xatırladıb. Tədqiqatçıya görə Marian çökəkliyi bu bakteriyaların növləri ilə zəngindir.

Alimlərin fikrincə, 6 kilometr dərinlikdə aşkarlanan bu bakteriyalar okeanın daha dərin hissələrində də mövcuddur.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

# 2019/2020-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbuluna dair elan

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində I ixtisas qrupunun fənləri üzrə keçirilmiş imtahanda 350-dən yuxarı bal toplamış, Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin iyul çağırışında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il may ayının 28-dən iyun ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək Daxili İşlər Nazirliyinin inzibati binasında (daxili telefon: 12-48) həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);
- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;
- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-92-48, (012) 590-99-47, (012) 454-12-78

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış - 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılıb endirilməsi – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Daxili İşlər Nazirliyi tərəfindən keçirilən sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir və birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə keçirilmiş test imtahanlarının nəticələrinə əsasən kursantlar seçilir.

İkinci mərhələnin ikinci imtahanının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmişdir. Abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2019-cu il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "XTB050615 - informasiya təhlükəsizliyi" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.